UOT 94(479.24); UOT 930

NURLAN NƏSİROV

Xəzər Universiteti Tarix və Arxeologiya Departamentinin müəllimi,
Bakı Dövlət Universitetinin elmlər doktoru proqramı üzrə doktorantı
nurlan.nasirov@khazar.org

İLXANLILAR DÖVLƏTİNİN DİNİ SİYASƏTİ (İNGİLİSDİLLİ TARİXŞÜNASLIQ ƏSASINDA)

DOI: https://doi.org/10.36719/2708-065X/109/14-22

Moğol işğalları nəticəsində Mərkəzi Azərbaycanda yaranmış İlxanlılar (Hülakülər) dövlətinin sosial-iqtisadi və siyasi tarixi tarixşünaslığımızda müxtəlif aspektlər üzrə tədqiqata cəlb edilmişdir. Lakin bu dövlətin həyata keçirdiyi dini siyasət, xüsusilə də onun uzunmüddətli təsirləri demək olar ki, zəif araşdırılmışdır. Bu boşluğun yaranmasının başlıca səbəbi Sovet dövründə hökm sürən ideoloji məhdudiyyətlər və tarix metodologiyası ilə bağlı olmuşdur. Məqalədə məqsəd İlxanlılar dövlətinin əksər hökmdarlarının dini siyasətini dövrün əsas qaynaqları və müasir ingilisdilli tarixşünaslıq kontekstində təhlil etməkdir. Tədqiqat zamanı müqayisəli tarix metodundan istifadə edilmiş və mövzu ilə bağlı mövcud nəzəri yanaşmalar təhlil olunmuşdur.

Açar sözlər: İlxanlılar, dini siyasət, Moğol dövləti, Azərbaycan, tarixşünaslıq, ingilisdilli tədqiqatlar.

Giriş. Dövrün ilkin qaynaqları olan *"Moğolların gizli tarixi",* farsdilli Ata *Məlik Cüveyninin "Tarixi cahanquşa"* eləcə də, Moğol sarayına göndərilmiş səyyahların gündəliklərində olan bilgilərdən məlum olur ki, moğolların ilkin dini inancları *bütpərəstlik və ənənəvi türk dini inancı olan Tanrıçılıq (Tenqriçilik- N.N.)* olmuşdur [16, 35; 35, 252; 17, 80]. A.C. d'Ohossonun fikrincə *moğollar, türklər və tatarların* dini Orta Asiyanın köçəri inanclarından heç də fərqli deyildi. Belə ki, bu qövmlər ülvi bir varlıq olan *"Tenqriyə"* sitayiş edirdilər [18, 35]. Tədqiqatçıların əksər hissəsinin gəldiyi qənatə görə *Çingiz xan (1206-1227)* və ondan sonra gələn *Ali Moğol xaqanlarının* dini siyasətinin əsasını bütün dinlərə *tolerant* münasibət təşkil etmişdir [8, 68; 11, 220; 22, 109]. Lakin, moğol işğalları nəticəsində bu tolerantlıq dəyişmiş və Moğol hökmdarları din və ya məzhəblərdən siyasi mənafelərin uyğun olaraq istifadə etmişlər. Moğol imperiyasının parçalanması sonrası yaranmış ulus dövlətlərdə də müəyyən vaxta kimi *bütpərəstlik (buddizm) və ya şamanizm* əsas rol oynamış, lakin zamanla tabe edilmiş xalqların səmavi dinləri qəbul edilmişdir.

Dövrün qaynaqlarında olan məlumatları müqayisəli şəkildə təhlil edərək İlxanlılar dövlətinin dini siyasətini üç əsas mərhələyə ayırmaq olar. 1) 1256-1282-ci illəri əhatə edən *şamanist (və ya bütpərəst,Tenqriçi)* olan Hülakü xan (1260-1265) və Abaqa xan (1265-1282) dönəmi, 2) 1282-1295-ci illər Əhməd Təküdər (1282-1284), Arqun xan (1284-1291), Keyxatu xan (1291-1295) və Baydu xanın (1295) hakimiyyətlərini əhatə edən *İslam* və digər dinlərin *münaqişəsi dönəmi*, 3) 1295 - 1335-ci illər Qazan xan (1295-1304), Olcaytu Xudabəndə (1304-1316) və Əbu Səidin bahadır xanın (1316-1335) və sonrakı tənəzzül dövrü oyuncaq İlxanların hakimiyyəti - *müsəlman* İlxanlar dönəmi.

Qazan xana qədər ilkin İlxanlı hökmdarlarının dini siyasəti. Dövlətin qurucusu hesab edilən Hülakü xanın (1260-1265) dini mənsubiyyəti və tabe edilmiş xalqların dini inanclarına münasibəti ingilisdilli tədqiqatçılar tərəfindən müxtəlif cür qiymətləndirilmişdir. 1258-ci ildə *Abbasilər xanədanlığının* varlığına son qoyduğuna görə əksər İslam qaynaqlarında *kafir* kimi qələmə verilən Hülakü xan, bunun əskinə xristian qaynaqlarında müsbət qiymətləndirilmişdir. Bəzi hallarda xristian qaynaqlarının təsirinə qapılan ingilisdilli tədqiqatçılar Hülakü xanı ya İslam düşməni, ya da xristianlığın hamisi, hətta xanımı nestorian *Doquz xatunun* təsiri ilə xristianlığı qəbul etdiyini iddia edirlər [33, 176]. Bundan əlavə, M.Biranın araşdırmalarına görə isə bəzi müsəlman qaynaqlarında Hülakü xanın islam dinini qəbul etməsi haqqında uydurma rəvayətlər də mövcuddur [23, 130]. Ancaq ingilisdilli müəlliflərin əksər hissəsinin qənatinə görə Hülakü xan ömrünün sonunacan *buddist və ya şamanist* dini inancına sahib olmuşdur. D.Morqan yazır ki, Hülakü xanın buddizmə meyl etdiyi görülsə də, onun dəfn mərasi-

mindən aydın olur ki, bu meyil zəif olmuşdur [23, 65]. A. Bausaninin araşdırmalarına görə isə İlxanlılar dövlətinin yaranmasından 1284-1294-cü illərə qədər *şamanizm* inancının mövqeyi güclü olmuşdur. Lakin, qeyd olunan tarixdən etibarən, xüsusilə Arqun xanın hakimiyyətə gəlməsi və *buddizmin* güclənməsi nəticəsində şamanizm elementləri zəifləmişdir [34, 541]. A.A.Vasilyev də əsərində Hülakünun şamanist və İslam düşmanı olduğunu bildirir [38, 672].

B.Şpulerin tədqiqatlarına görə Hülakülər zamanında buddizmin geniş yayılması və İlxanların bu dinlə bağlı həyata keçirdiyi tədbirlər dövrün İslam qaynaqlarında az təsvir olunmuşdur. Bu səbəbən də buddizmin İlxanlılardə yayılması və dövlətin ərazisində çoxlu *buddist məbədlərinin* tikilməsinə baxmayaraq, biz bu haqda yalnız *Qazan xanın islahatlarına* görə məbədlərin sökülməsi zamanıbir qədər geniş məlumatlar alırıq [7, 201]. Ancaq bəzi mənbələrə nəzər yetirdiyimiz zaman Qazan xana qədər buddizmin dövlətin həyatında tutduğu mövqeyə aid məlumatlara rast gəlmək mümkündür. Belə ki, Gəncəli Kirakosun Hülakü xan tərəfindən içərisində taxta və şəkillərin mövcud olduğu bütxanalar inşa etməsi və bu bütxanalarda *toyin* (bütpərəst kahin –N.N.) adlanan qırxıq başlı, sarı əbalı sehrbazların hər şeyə ibadət etmələri haqqındakı məlumatını buna nümunə göstərmək olar [9, 143].

Hülakü xanın dini mənsubiyyəti və dini siyasəti ilə bağlı tədqiqatçılar arasında fikirayrılıqlarının yaranmasının səbəbi İlxanlılar dövlətinin xarici siyasəti ilə bağlıdır. Belə ki, Hülakü xan Ön Asiyaya daxil olan zaman Abbasilər xilafətinin varlığına son qoymaqla eləcə də, müsəlman *Misir Məmlüklərinə* qarşı müharibələr aparmaqla bölgədə *İslam düşməni imicini* yaratmış və təbii olaraq özünü müsəlmanlarla ittifaqdan məhrum etmişdi. Buna görə də o, bölgədə *Misir Məmlük* sultanlığı və İslamı qəbul etmiş *Qızıl Orda* xanlığı kimi müsəlman dövlətlərinin koalisiyasına qarşı *gürcü, erməni, Bizans və Avropa səlibçiləri* qismində müttəfiqlər qazanmaq üçün xristianlıqdan siyasi mənafeyinə uyğun olaraq istifadə etmişdi.

Hülakü xanın islam məzhəblərindən şiəliyə münasibətinin müsbət olması ingilisdilli müəlliflərin diqqətini cəlb etmiş və bu istiqamətdə müəyyən mülahizələr irəli sürülmüşdür. Əsasən əhli-sünnə qaynaqları moğolların *Bağdad* üzərinə yürüş etməsi və Abbasilər xanədanlığının hakimiyyətinə son qoyulmasında sonuncu xəlifənin şiə əqidəli vəziri *əl-Qəmini* günahkar hesab edir, onu moğollarla işbirliyi qurmaqda gühanladırırlar. Bundan əlavə şiə əqidəli Nəsirəddin Tusininin də bu işdə ona yardımcı olmasını iddia edirlər. Bununla yanaşı Hülakü xanın Bağdadın mühasirəsi zamanı şəhərin *Əli övladlarına (seyyidlərə –N.N.)* və *xristianlara (qaynaqlarda ərkavun adlanırlar- N.N.)* aman verməsi kimi faktlardan çıxış edərək onun şiəliyə münasibətinin müsbət olduğunu iddia edirlər. Məsələ ilə bağlı A.Bausanin fikrincə moğol işğalı zamanı ara-sıra şiələr Hülakü ilə əməkdaşlıq etmək üçün hədislər də nəql edirdilər. Bir hədisə görə *"türklər" Hz Mehdi (s.ə.z) və ya "Qaimə" zəfər qazanmaqda kömək edəcəkdilər* [34, 539]. Hesab edirik ki, Bağdadın işğalı zamanı şiələrin fəaliyyəti, xüsusilə vəzir əl-Qəmi və Nəsirəddin Tusinin *"xəyanətkar"* kimi təqdim edən təəssübkeş əhli-sünnə qaynaqlarında olan məlumatlar subyektiv xarakter daşıyır və bəzi ingilisdilli tədqiqatçılar da alternativ qaynaqlarla müqayisəli təhlil aparmayaraq bu məsələdə yanlışlığa yol verirlər. Problemlə bağlı H.Şahinin araşdırmalarna görə də bu qaynaqların əksər hissəsinin yazarı dönəmin *hənbəli* şeyxi və qatı şiə əleyhdarı, ifrat fikirləri ilə tanınan *ibn Teymiyyənin (1263-1328)* tələbələri olan *tarixçilərdir* və dövrün əsas sünni qaynaqları olan *Cüveyni, Cüzcani, Əbul Fərəc, İbnul Fuvati, Həmdullah Qəzvini* və başqa müəlliflər Nəsirəddin Tusinin Bağdadın işğalında rolunun olduğunu düşünmürlər [12, 51]. Bununla yanaşı, tədqiqatçının haqlı olaraq vurğuladığı kimi Nəsirəddin Tusi həyatda olduğu müddətdə moğolların diqqətini başqa yönlərə çəkərək, şiə - sünni ayrımı etmədən müsəlmanların rahatlığını təmin etməyə çalışan dəyərli elm adamı olmuşdur [12, 55]. Hesab edirik ki, Bağdadın moğollar tərəfindən işğalını Nəsirəddin Tusi və ya xəlifənin vəziri əl-Qəmi ilə bağlamaqdansa sonuncu Abbasi xəlifəsi olan *əl-Müstəsim Billahın* qabliyyətsiz idarəçiliyi və pula hərisliyi ilə əlaqələndirmək daha doğru olardı. Bununla yanaşı, qaynaqlarda kifayət qədər görkəmli alim Nəsirəddin Tusinin məzhəb ayrımı etmədən müsəlmanları qəddar moğol İlxanlarının zülmündən qoruması faktlarına da rast gəlmək mümkündür [28, 501-502]. Fikrizimzcə bundan əlavə də, Bağdadın işğalının qaçınılmazılığını Moğolların dünyaya sahib olmaq ideologiyası ilə də əlaqələndirmək daha doğru elmi nəticələrdən biri ola bilər.

İkici ilxan Abaqa xan (1265-1282) dövründə də İlxanlı ulusunun dini siyasəti demək olar ki Hülakü xan zamanındakı kimi olmuş, hökmdarın əsasən buddizm, qismən şamanizm və xristianlığa münasibəti müsbət olmuşdur. Tədqiqaçıların bir qrupu Abaqa xan hakimiyyətini xristianlığın tərəqqisi

dövrü kimi qiymətləndirilər [34; 195]. Hətta, Abaqa xanın ögey anası *nestorian* məzhəbindən olan *Doquz xatunun* və həyat yoldaşı *Bizans hökmdarı VIII Mixayl Palaeoloqusın (1261-1282) qızı Mariyanın (Dəspinə xatun – N.N.)* təsiri ilə xristianlığa meyl etdiyini iddia edirlər. Bununla yanaşı, bəzi ingilisdilli tədqiqatçılar Alban tarixçisi *Gəncəli Kirakos* və bir sıra erməni müvərrixlərinin əsərlərində olan Abaqanın xaçaçuran edilməsi məlumatına istinad edərək onun da xristian olduğunu ehtimal edirlər [20, 43]. Ancaq hesab edirik ki, Abaqa *xanın xristian olması və onun xristian təbəəsinin hamisi kimi təqdim edilməsi xristian qaynaq müəlliflərinin dini təəsubkeşliyindən meydana gələn məlumatlarıdır*. Təəssüf ki, bəzi ingilisidilli tədqiqatçılar *erməni qaynaqlarında* olan bu məlumatları dövrün digər məxəzləri ilə müqayisə etməyərək Abaqa xanın xristian olduğunu həqiqət kimi qəbul edərək yanlışlığa yol verirlər. Əslində isə, İlxani tarixinə aid dövrün ən mötəbər mənbəsi olan *F.Rəşidəddinin "Camiüt-təvarix"* əsərində açıq şəkildə göstərilir ki, Abaqa xan ömrünün sonuna qədər atası Hülaku xan və əcdadlarının dini olan bütpərəstliyə (və ya şamanizm – N.N.) sadiq qalmışdır [29, 515-518: 40, 1059-1065].

Ancaq bildirmək lazımdır ki, Abaqa xan dövründə xristian dini və xristian təbəələrinə münasibət yaxşılaşmışdı. Bunun əsas səbəbi də, xristian dininin bəhs edilən dövrdə İlxanlı dövlətinin müsəlman olan *Misir Məmlük sultanlığına* və onun müttəfiqi olan *Qızıl Orda xanlığına* qarşı *erməni, gürcü, Bizans və Səlibçi Avropa dövlətləri* ilə əlaqələrin yaradılmasında istifadə edilməsi idi. Hələ moğolların ilk yürüşlərindən *Kilikiyada* yerləşən *Hetumidlər sülaləsinin idarə etdiyi erməni çarlığı* moğollara tabe olmaqla kifayətlənməyib, *müsəlman-türklərə* qarşı onlardan istifadə etməyə çalışırdılar. Buna misal olaraq biz, *Kilikiya çarı I Hetumun (1226-1270)* Moğollara tabe olmağı nümayiş etdirmək üçün ilk öncə 1247-ci ildə qardaşı *Smbadı göndərməsi, daha sonra isə özünün birbaşa Ali Moğol xanı Münke xanın (1251-1259) sarayına - Qaraqoruma* səfər etməsi xüsusi olaraq göstərmək olar. Ələxsus ikinci səfərin nəticəsi olaraq Hetum, Moğollarla imzalanan sazişinə görə Şərqi Anadoluda yerləşən xırda xanədanlığının istənilən yerində kilsələr tikilməsinə icazə əldə edə bilmişdi [3, 203]. Şübhəsiz bunun qarşılığında onlar Misir Məmlüklərinə, Anadolu Səlcuqlu Sultanlığı və digər türk-müsəlman hakimlərinə qarşı mübarizədə Moğollara istər hərbi, istərsə də, kəşfiyyat işində yardımçı olmağa, Qərb xristian dünyası ilə (xüsusilə səlibçilərlə) vasitəçi olmağa söz verirdilər.

İngilisdilli tədqiqatatçılar sonrakı *İlxan Əhməd Təkudərin (1282-1284)* dövründə dini xüsusi diqqət yetirmişlər. Şübhəsiz, bunun əsas səbəbi onun əvvəlki Hülakü hökmdarlarından fərqli olaraq *İslamı qəbul edən ilk ilxan olmasıdır*. R.Amitainin tədqiqatlarına görə qaynaqlarda olan bilgilərə görə Təkudər xanın islamla tanışlığı hələ İlxanlı taxtına çıxmazdan az müddət öncə, bu coğrafiyada olan *Əhmədiyyə sufi şeyxləri* təsiri ilə olmuşdur. Ancaq, o, məmlük tarixçiləri *Məkrizi və İbn əl-Furatın* əsərlərində Təkudər xanın ölüm tarixinin 1284-cü ildə, yəni 37 yaşında olmasını qeyd etmələrini nəzərə alıb, onun Hülakü xanın 1253-cü ildə başlayan Qərb yürüşünə çıxdığı uçün atası ilə birlikdə çox vaxt keçirməsinin mümkün olmadığını, həmçinin F.Rəşidəddinin verdiyi məlumata görə isə Hülakü xanın yürüşü vaxtı Təkudərin Moğolustanda qalmasını müəyyən etmişdir. Həmçinin, R.Amitai *Əhmədiyyə sufilərinin* o dərəcədə təşkilatlanaraq Moğolustana qədər nüfuz edə biləcəklərinə də şübhə ilə yanaşaraq bəzi Məmlük mənbələrində olan bu məlumatları etibarlı hesab etmir [4, 18-21].

Ərəbdilli qaynaqlardan fərqli olaraq farsdilli qaynaqlar bizə Təkudərin müsəlman olmasında *türk əsilli sufi Şeyx Əbdürrəhmanın* və Azərbaycanda yerləşən *Qələndəriyyə təriqətinə* mənsub *İşan və ya Həsən Mengli* adlı şeyxin güclü təsiri olduğu haqqında ilginc məlumatlar təqdim edin. Bu türk-sufiləri Təkudər xanın dinini dəyişməyə təşviq etməklə yanaşı, onun ilxan seçilməsindən sonra İlxanlı dövlətin idarə edilməsində də fəal rol oynamağa başladılar. F.Rəşidəddin Əhməd Təkudərin Şeyx Əbdürrəhmanı "*baba" ve ya "şeyxül-islam",* Həsən Menglini isə türkcə qardaş mənasına gələn *"qarındaş"* adlandırdığını yazıya almışdır. Həmçinin "Camiüt-təvarixdə" göstərildiyi kimi, *Təkudər xan vaxtının* çoxunu *Arrana* yaxın olan iqamətgahında sufi-dərviş təkkələrində keçirir və onlarla birlikdə zikr, səma rəqsləri edirdi [30, 133].

İngilisdilli təqiqatçılar Təkudər xanın ənənəvi moğol dinindən imtina edərək İslamı qəbul etməsini müxtəlif səbəblərlə əlaqələndirirlər. Əksər tədqiqatçılar onun bu addımı atmasında İlxanlıların Hülakü və Abaqa xan dövründən müharibə vəziyyətində olduqları müsəlman *Misir məmlükləri* və artıq İslamı qəbul etmiş digər *Qızıl Orda xanları* ilə də münasibətlərin qaydaya salınmasında siyasi-ideoloji manevr kimi qiymətləndirilər [28; 37].

İslamı dövlət dini elan etmiş Təküdər xan Əhməd adını və sultan titulunu qəbul edərək yeni dinin qaydalarına uyğun olaraq bir sıra tədbirlər həyata keçirməyə başladı. Şeyx Əbdürrəhmanın rəhbərliyi ilə imam və üləmaya, dini ibadət yerlərinə vəqflər təyin edərək, zəvvarların Həcc mərasimini təhlükəsiz və rahat şəkildə həyata keçirmələri üçün şərait yaratdı. Erməni müvərrihi Haytonun qeydinə görə isə qeyri-müsəlman əhali təyin olunmuş vəqf və ianələrdən məhrum qaldaraq kilsə və buddist məbədləri də məscidlərə çevrildi [14, 288].

Əhməd Təküdərin moğollara yad olan İslamı qəbul etməsi hərbi-köçəri əyanların ondan uzaqlaşmasına və İlxanlı taxtına iddiaçı olan qardaşı oğlu Arqun xanın (1284-1291) bundan istifadə edərək hakimiyyəti ələ keçirməsinə səbəb oldu. Arqun xanın hakimiyyəti dövrünü İlxanlılar dövlətində buddizmin ən inkişaf etdiyi dövr kimi qiymətləndirmək olar. A.Bausanin araşdırmalarına görə Hindistandan buddist rahiblər gətirən Arqun xan dönəmində buddizm güc qazanmış, hətta rəvayətə görə İlxanın ölümünə səbəb bu rahiblər olmuşdur [34, 541]. F.Rəşidəddin Hindistandan gətirilən *"bəxşi"* adlanan bu rahiblərə Arqun xanın xüsusi diqqət göstərdiyini qeyd edir. Müəllif həmçinin ilxanın bəxşilərin hazırladığı kimyəvi qatqıları qəbul etməsi nəticəsində zəhərlənməsinə dair məlumat verir [29, 574]. R.Prazniakın araşdırmalarına görə isə Hülakü və Arqun xan zamanında Aladağ, Xoy, Təbriz, Marağa, Təxt-i Süleyman və Sultaniyyə kimi şəhərlərdə buddist məbədlər inşa edilmişdi [32, 661].

Arqun xanın hakimiyyəti dövründə buddizmlə yanaşı digər dinlərinin xüsusilə musəviliyin dominant mövqe qazanması tədqiqatçıların diqqətini cəkmişdir. A.Bausanin fikrincə bunu ilxanın vəziri vəzifəsini qazanmış yəhudi həkim və qatı islam düşmənı olan *Sadəddövlənin* mövqeyinin güclənməsi ilə izah etmək olar [34, 541]. R.Prazniakın təsbitinə görə Arqun xanı müsəlmanlara qarşı qəti tədbirlər görməyə sövq edən *Saddəddövlə* "Tarix-e Vəssaf"ın verdiyi məlumata görə hətta Kəbə evinin bütlərlə yenidən doldurulması və buranın bütxanaya çevrilməsinə çalışırdı [32, 652]. İlkin İlxanlar kimi Arqun xanın da xristianlığa münasibəti müsbət olmuşdur. Bunun da səbəbi onun da əvvəlki İlxanlar kimi müsəlman Məmlük sultanlığına qarşı Qərb dövlətləri ilə ittifaqa girmək istəyi olmuşdur. Arqun xan zamanında nestorian xristianlar himayə edilmiş, İlxanın papa və Avropa dövlətlərinə göndərdiyi məktublarda bu özünü göstərmişdir. D.Morqan papa tərəfindən keşiş *Mar Yaballahın* Arqun xan zamanında İlxanlılar dövlətində xristianlığın təbliği üçün göndərildiyini hətta onun *Olcaytu Xudabəndəyə* Nikolas adını verərək xaçaçuran etdiyini qeyd edir [23, 65].

Arqundan sonra hakimiyyətə gəlmiş Keyxatu xanın (1291-1294) dövründə dövlətin dini siyasətində *buddizm və xristianlığa* daha çox meyil olmuşdur. H.Hovords Keyxatuya hakimiyyətə gəldiyi zaman buddist rahiblər tərəfindən *"rinjin dorce" (dəyərli almaz-N.N.)* adının verildiyini qeyd edir [14, 357]. Z.V.Toqan Keyxatunun buddizmə meyilli olmasına baxmayaraq şamanist olduğunu bildirir [36, 228]. Dövrün qaynaqlarında və numizmatik materiallarda olan məlumatlardan güman etmək olur ki, Keyxatu xanın buddist və ya şamanist olmasına baxmayaraq xristian və islam dininə olan münasibəti də tolerant olmuşdur.

Keyxatu xanı hakimiyyətdən devirən və qısa müddətdə ilxan olmuş Baydu xanın (1294) dini mənsubiyyətinə və dini siyasəti tədqiqatçılar tərəfindən çox az diqqət yetirilmişdir. Bunun səbəbi onun hakimiyyətdə qısa vaxtda olması və qaynaqlarda olan məlumatların azlığıdır. V.Bartold xristian və şərq qaynaqlarına əsaslanaraq Baydunun xristianları və xristian təbəəsini müsəlmanların qəzəbindən himayə etdiyini qeyd edir [5, 489]. A.Boyl ermənidilli *Hayton və suryani Bar Ebreyin* Baydunu "xeyirxah xristian" adlandırmasını, digər tərəfdən də onun müsəlman olmasına baxmayaraq "dəstəməz almağı və oruc tutmağı heç vaxt öyrənə bilmədiyini" iddia etmələrinə şübhəylə yanaşır. Belə ki, müəllifin qənaətinə görə Baydu ənənəvi şamanist deist yanaşmasını əsas tutaraq bütün dinlərə və inanclara bərabər səviyyədə münasibət göstərmişdir [34, 379]. Baydu xanın səmavi dinlərə olan münasibətini onun dövrünü təsvir edən Mahmud Ağsaraylının məlumatlarında da görmək olur. Müəllifi yazır ki, *Baydu taxata çıxdıqdan sonra mədrəsələrin, dərgahların,təkkələrin və məscidlərin rövnəqi qaçdı. Müqəddəs elm və ibadət yuvaları kafirlərlər patrik və bəxşilərin əlinə keçdi, şərab məclislərinə çevrildi. Məscidlərin sökülməsi xüsusunda iş o yerə çatdı ki daha azan səslərindən, namaz və niyazdan əsər qalmayacaq, məscidlər bütxanaya dönəcəkdi* [1, 250].

Qazan xan və sonrakı İlxanların dini siyasəti. İlxani hökmdarlarından dini siyasəti daha çox araşdırılmış ilxanlardan biri də şübhəsiz Qazan xandır. Qazan xanın islamı qəbul etməsi ingilisdilli tədqiqatçılar tərəfindən müxtəlif səbəblərlə izah edilir. Bir qrup tədqiqatçılara görə Qazan xan islamı

qəbul etməklə xristianlığa meyilli olan rəqibi Baydu xana qarşı müxalifət mövqeyində dayanmaq və hakimiyyəti ələ keçirmək üçün müsəlmanların dəstəyini qazanmaq məqsədi güdürdü [14; 20; 23; 26]. Bəzi tədqiqatçılar isə Qazan xanın dinini dəyişməsində müsəlman moğol əmiri *Novruzun* mühüm rol oynadığını və Qazanın hakimiyyəti ələ keçirmək məqsədilə bu əmirin dəstəyini qazanmaq üçün islamı qəbul etdiyini iddia edirlər. [24; 25; 31; 34]. F.Rəşidəddinin "Camiüt - təvarix"dən aldığımız məlumatdan görünür ki, Qazanın İslamı qəbul etməsində *Əmir Novruzun və xüsusilə bu zaman məşhurlaşan din alimi vı sufi şeyx Şeyx Sədrəddin Həməvinin* xüsusi rolu olmuşdur [13, 210; 29, 620].

Qazan xan İslamın *hənəfi* məzhəbini qəbul etmişdi. Ancaq *Əli övladları, yəni seyidlərlə* də olduqca xoş rəftar etmiş, hətta Bağdad, Şiraz, İsfahan və digər böyük şəhərlərdə bu soydan olanlar üçün xüsusi evlərin tikilməsini fərman vermişdi [25, 335]. 1298-ci ildə Qazan xan *Hz. Hüseyinin (as)* məzarını ziyarət etmiş və Hillənin üst tərəfində çay yatağı qazılmasını əmr edərək buradan əldə edilən suyu *Kərbəlaya* çatdıraraq, quraq ərazilərin istifadə edilməsinə şərait yaratmışdı. Həmçinin O, 1299-cu ildə *Hz. Əlinin qəbrinin* ziyarətindən olduqca təsirlənmişdi [13, 220] Bununla yanaşı o, dövrün məşhur əhli-sünnə şeyxlərinə, ürfan əhlinə, sufilərə də biganə qalmırdı. Sələfi *Əhməd Təküdər kimi Qazan xanın* da müsəlman olmasında məşhur türk əsilli sufi şeyxlərinin özünəməxsus təsirləri olmuşdur [24, 21].

Müsəlman olan Qazan xanın fərman və əmrlərinə əsasən özündən əvvəlki moğol hökmdarları zamanında viran edilmiş *məscidlərin, mədrəsələrin bərpası, həmçinin iri şəhərlərdə yeni məscidlərin tikilməsi, məscidləri xalçalarla, yanacaqla təmin edilməsi, dini ibadət yerlərində xidmət göstərən şəxslərə müavinətlərin verilməsi, abadlıq işlərinin aparılması, hamamların tikilməsi İslamın qaydalarına uyğun olaraq insanların təmiz və rahat* şəkildə ibadətlə məşğul olunmasını təmin etdi [29, 743]. Həmçinin, o buddist din xadimlərindən ya İslamı qəbul etmələrini, ya da İlxanlı dövləti ərazilərini tərk edərək Hindistana, Kəşmirə, Tibetə qayıtmalarını tələb etmişdi. Hətta uşaqlığında moğol adəti ilə özünün dini tərbiyə aldığı buddistlərə aid məbədlərin dağıdılmasını əmr edən zaman, onun bu əmrindən atası Arqunun inşa etdirdiyi və içərisində rəsminin olduğu məbəd də öz nəsibini almışdı [25, 676]. Bir sıra xristian qaynaqlarında Qazan xanın əmri ilə *Bağdad, Mosul, Həmədan, Marağa, Təbriz, Naxçıvan* kimi şəhərlərdə kilsələri dağıdılması məlumatları mövcuddur. Ancaq Ç.Melvilin haqlı olaraq bildirdiyi kimi bu dağıntılar Qazan xanın əmri ilə deyil *Əmir Novruzun* göstərişi ilə həyata keçirilmişdir. Qazan xan isə İslamın gərəklərinə uyğun olaraq kitab əhlindən olanlara qarşı tolerant mövqe nümayiş etdirmişdir [21, 170]. Ancaq qeyd etmək lazımdır ki, Qazandan əvvəlki ilxanlar dönəmində *xristian və musəvilərin* dövlətin ictimai həyatında imtiyazları müsəlmanlarla müqayisədə daha yüksək idi. Bu səbəbdən də Qazan xan xristian və müsəvilərin müsəlmanlardan fərqlənməsi üçün xristianlara bellərinə xüsusi kəmərlər bağlamaları, yəhudilərə isə sarığlarına sarı bir bez taxmalarını və onlardan cizyə alınmasını əmr etdi.

Qazan xanın müsəlman olması və İslami dəyərləri əsas tutması, onu Moğol paytaxtı *Qaraqorumdan* da uzaqlaşdırmışdı. Belə ki, o, islamı qəbul edəndən sonra zərb etdirdiyi sikkələrə *"Müzaffərəd-dünya və-din Mahmud Qazan xan"* və ya "*Padişahi-İslam"* titullarını qeyd etdirmiş, *"İlxan"* titulundan imtina edərək onun yerinə sadəcə *"xan"* titulunu saxlamışdı. Ancaq, bəzi numizmatik materiallarda və Qazan xanın 1302-ci ildə papa VIII Bonifesə (1294-1303) göndərdiyi məktubunda onun ənənəvi türk-moğol "*Qüdrətli Tengri"(Göy tanrı) və "İlxan"* titullarından da istifadə etdiyi məlum olur [2, 32].

Son dövr nəşr edilən ingilisdilli əsərlərdə Qazan xanın müsəlmanlığı səmimi və dərk edərək qəbul etməsi məsələsi tədqiqatçılar arasında müzakirəyə səbəb olumuşdur. Belə ki, bir qrup tədqiqatçılar Qazanın İslamı səmimi və dərk edərək qəbul etməsinə şübhə ilə yanaşır, həmçinin onun moğol adət-ənənəsindən tam olaraq ayrılmadığını mənbələrdən gətirilən faktları təhlil edərək öz fikirlərinin sübutuna çalışırlar [129, 205]. Bu yanaşma ilə bağlı əsas diqqəti çəkən Qazan xanın atasının dul qalmış xanımı *Bulaqan xatunla* evlənməsini, Qazan xanın İslamı qəbulundan sonra şərab içməsi və niyyət ağacların ətrafında oynayaraq nəzir etməsi və bir çox hadisələrdir . Bu kimi faktlara əsaslansaq Qazanın İslamı hələ dərindən qavrayaraq qəbul etmədiyi fikrini irəli sürür və onu sinkretik sufi adlandırmaq olar. Amma onu da nəzərə almaq vacidbir ki, qaynaqlarda olan bu məlumatlar Qazan xanın İslamı qəbul etməsinin ilkin vaxtlarına təsadüf edir və onun hələ İslamın bəzi ehkamlarını tam olaraq mənimsəməməsini göstərir.

Qazan xandan sonra onun varisliyi əsasında hakimiyyətə gələn *Olcaytu Xudabəndənin* (1304-1316) dini mənsubiyyəti və dini siyasəti də Qazan xan kimi ingilisdilli tarixçilərin daha çox marağına səbəb olmuşdur. H.Hovords xristian qaynaqlarının Olcaytunun digər ilxanlar kimi hakimiyyətə gəlməzdən öncə xristian inancına sahib olduğunu və xaçaçuran edilərək *Nikolas* adını qəbul etdiyini iddia edir [14, 535]. A.Boyla görə Olcaytunun uşaq yaşlarında xristian *Nikolas* adı ilə xaçaçuran edilməsinə baxmayarq, daha sonra *buddist və nəhayət (hənəfi) müsəlman* olmuşdu [34, 401]. R.Qrosset fikrincə isə Olcaytu ilk öncə *anası Uruq xatunun təsiri ilə nestorianlı*ğı daha sonra həyat yoldaşının təsiri ilə *islamı* qəbul etmişdi [11, 383].

Olcaytu Xudabəndənin dövründə dini siyasətdə ən önəmli hadisə onun tərəfindən *şiəlik və ya isna-əşəriyyə* (on iki imamilik) məzhəbinin 1309-cu ildə İlxanlılar dövlətinin əhatə etdiyi ərazilərdə əsas məzhəb elan etməsi olmuşdur. Olcaytu Xudabəndə dövrünün əsas qaynağı hesab edilən Abdullah Kaşaninin "Tarix-i Olcaytu" adlı əsərində olan məlumatına görə sultanı *şiəlik məzhəbini* qəbul etməyə bu əqidəyə sahib olan *Tarmatas* adlı moğol əmiri rəğbətləndirmiş, ona qardaşı Qazan xanın da bu məzhəbə olan sevgisini xatırlatmışdır [39, 100-101]. İbn Bəttutə isə Olcaytunun şiəlik məzhəbini *Nəsirəddin Tusinin* tələbəsi olmuş dövrün məhşur şiə alimi *Cəmaləddin Mütəhərri Hillinin* təsiri ilə qəbul etdiyini bildirir [10, 285-286].

Məsələni dərindən tədqiq edən Cudi Pfayfrın fikrincə, sultanın bu məzhəbi qəbul etməsində *Barak Baba (1257-1307)* adlı dövrün tanınmış *türk-sufi şeyxinin* mühüm rolu olmuşdur [27, 40-43]. İbn Tağrıberdi bu türkmən *şeyxin kəraməti haqqında olduqca maraqlı məlumatlar vermişdir. Müəllif yazır ki, "Deyilənə görə Qazan xan bu şeyxlə bağlı bilgi alınca onun üstünə vəhşi bir aslan göndərmiş, ancaq şeyx aslanın üzərinə minərək onu sürməyə başlamışdır. Bu kəraməti görən Qazan xanın gözləri fal daşı kimi bərəlir və şeyxin üzərinə on min dinar səpir"* [15, 113], J.Pfayfrın araşdırmalarına görə Barak Baba dövlət idarəçilik işlərinə də təsir edərək İlxanın səfiri qismində hətta diplomatik missiyalarda da iştirak etmiş və 1306-cı ildə moğol ordusu *Dəməşqə* daxil olan zaman dövlət bayrağını daşımışdır. Ancaq, İlxanlılar əleyhinə Gilanda baş vermiş üsyan zamanı *Barak Baba* öldürülmüş və Olcaytu Xudabəndə tərəfindən Sultaniyyə şəhərində dəfn edilərək məzarı üzərində məqbərə inşa edilmişdir [27, 44-45]. Ancaq qaynaqlarda Olcaytunun zamanla şiəlik məzhəbindən uzalaşması və digər sünni məzhəbləri yenidən qəbul etməsi məlumatlarıda mövcuddur.

Əbu Səid (1316-1335) zamanında da dini siyasət də müəyyən dəyişiklik baş verir. Belə ki, atası *Olcaytu Məhəmməd Xudabəndənin* şiəlik məzhəbini rəsmi məzhəb elan etməsindən sonra dövlətin ərazisində yaşayan digər əhli-sünnə məzhəblərinə edilən təzyiqlər yeni məzhəbi qarşıdrumaların yaranmasına səbəb oldu. Bu iğtişaşları aradan qaldırmaq üçün Əbu Səid sünniliyi yenidən dövlətin rəsmi məzhəbi kimi bərpa etmişdir. B.Şpulerin məlumatına görə, Əbu Səid müşavirləri sayəsində yenidən sünnə məzhəbi əsaslarında tərbiyə aldı və hakimiyyətə gəldikdə sonra zərb edilmiş sikkələr üzərində dörd xəlifənin adının yazılması qaydasını bərpa etdirdi [7, 213].

Əbu Səidin ölümündən sonra İlxanlılar dövlətində başlanan tənəzzül mərhələsində də dini vəziyyət siyasi və sosial iqtisadi böhrana uyğun olaraq inkişaf etməkdə idi. Hakimiyyət uğrunda gedən feodal çəkişmələri dövrün dini şəxsiyyətlərin də həyatına ciddi təsir göstərir bir sıra görkəmli din xadimlərinin ölkəni tərk etmək məcburiyyətində qalmasına səbəb olurdu. Hətta dövrün Ərdəbil şeyxlərindən olan Şeyx Sədrəddin (1334-1392) Məlik Əşrəf tərəfindən aldadılıraq Təbriz şəhərinə gətirilmiş və burada üç ay həbxsanada saxlanılmışdır [6,11]. Ancaq, Qızıl Orda xanı Canı bəyin Azərbaycana yürüşü və İlxanlılar dövlətinin süqutu nəticəsində Səfəvi şeyxi həbsxanadan azad edilmiş və ona qarşı sayğı göstərilmişdir.

Nəticə. Beləliklə, *bütpərəst və ya tenqriçi* (şamanist) etiqadlı türk-moğol tayfalarının Orta Şərq coğrafiyasını hücümları, bölgənin maddi və mənəvi həyatına da təsirsiz ötüşmədi. İlkin qaynaqların və xüsusilə ingilisdilli tarixşünaslığın təhlili deməyə əsas veirir ki, metropoliyası Azərabaycanda olan İlxanlı ulusunun hakimiyyəti dövründə dini münasibətlər olduqca dəyişkən və praqmatik olmuşdur. Belə ki, islamın geniş şəkildə rəsmi dövlət dininiə çevrilməyə başlandığı Qazan xana qədər İlxanların çoxu *buddist və ya tenqriçi (şamanist)* əqidəli olmuş və bu dinin gərəklərini öz siyasətlərinin mərkəzinə yerləşdirmişlər. Bunlar arasında ikinci İlxan Əhməd Təküdər istina olmaqla əksər İlxanlar paganist olmuş, ancaq bölgədə yaranmış geosiyasi vəziyyətlə bağlı xristianlığa rəğbət bəsləmişlər. Ancaq Qazan və sonrakı İlxanlar artıq bir sıra nüfuzlü moğol aristorkatiyasının da qəbul etdiyi – İslamı hakimiy-

yətə gəlmək məqsədi ilə qəbul etmişdir. Bu prosesdə türk sufi şeyxlərinin də xüsusi rolu olmuşdur. Ancaq Olcaytu Xudabəndə ilk dəfə şiə məzhəbini rəsmi dövlət dini elan etməklə hələ Səfəvilərdən təxminən 200 il öncə bölgədə şiə dövlətinin nümunəsini yaratmışdır. Təbii ki bu islahat qısa müddət çəkmiş və bir dini ideologiya səviyyəsinə yüksəlməmişdir. Əbu Səid yenidən ənənəvi sünni məzhəbinə etiqadı bərpa etmişdi. Əbu Səiddən sonra İlxanlıların tənəzzülü dövründə isə dini və məzhəbi vəziyyət mövcud siyasi pərakəndəliyə uyğun olaraq o dərəcədə diqqət mərkəzində olmamış və hadisələr ənənəvi şəkildə inkişaf etmişdir.

ƏDƏBİYYAT

1. Aksarayi Kerimüddin Mahmud. Musıimeretü'l Ahbar, Çeviren M N.Gencosman, Ankara:1943,383 s.
2. Allsen T. Culture and Conquest in Mongol Eurasia, London: Cambridge University Press, 2001, 212 p.
3. Amitai R. Dangerous liaisons Armenian-Mongol-Mamluk relations (126-1292), La Mediterranee des Armeniens XII –XIV siecle, Paris: 2014, pp.191-207.
4. Amitai R. The Conversion of Tegüder İlkhan to İslam, JSAİ. 25. 2001. pp.15-43.
5. Бартольд В. В. Работы по исторической географии и истории Ирана, Москва: “Восточная литература”, 2003, 663 с.
6. Bayramlı Z. H, Şabiyev B. Ş. Azərbaycan Səfəvi dövləti (XVI – XVII əsrlər) Bakı: Avropa nəşriyyatı, 2016, 361 s.
7. Bertold, S. İran Moğolları. Çeviren Cemal Köprülü, Ankara: TTK Yayınevi, 2011, 579 s.
8. Biran M. Chinggis Khan, London: Oneworld Publication, 2007, 182 p.
9. Boyle J.A. Some Additional notes on the Mongolian Names in the History of the Nation of the Archers// Research in Altaic languages. Budapest, 1975, pp.31-53.
10. Ebu Abdullah Muhammed İbn Battuta Tanci. İbn Battuta Seyahetnamesi, Çeviri, inceleme, notlar: A.Sait Aykut, I cilt, İstanbul: YKY, 2000, 580 s.
11. Grousset R. The Empire of the Steppes. Translated from the French by Naomi Walford, New Jersey: New Brunswick, 1970, 398 p.
12. Hanifi Ş. İlhanlılar döneminde şiilik, Doktora tezi, Erzurum: 2008, 202s.
13. Hanifi Ş. Camiut-Tevarhe Göre Gazan Hanın Müslümanlığı ve bunun İlhanlı toplumuna yansımaları. Bilig dergisi. Bahar, 2015, Sayı.73, s.207-230.
14. Howorth H. History of the Mongols: from the 9th to the19th century. Part III, London: 1880, 776 p.
15. İbn Tagriberdi. En - Nücumuz – Zahire (Parlayan Yıldızlar), Arapçadan çeviri, D.Ahsen Batur, İstanbul: Selenga Yayinlari, 2013, 621 s.
16. Johann de Plano Karpini. Moğol tarihi ve Seyehatname. Çeviren: Ergin Ayan, Ordu: Derya kitapevi, 2000, 141 s.
17. Juvaini Ata Malik. The History of the World Conqueror, tr. J.A. Boyle, Manchester: Manchester University Press, 1997, 763 p.
18. Konstantin d’Ohosson. Moğol Tarihi. Denizler imperatoru Cengiz. Türkce tercüme: Bahadır Apaydın, İstanbul: Nesnel Yayınları, 2008, 269 s.
19. Lane G. The Mongols in Iran, The Oxford Handbook of Iranian History. New York: Oxford University Press, 2012, 432 p.
20. Lane G. Early Mongol rule in thirteenth-century Iran, London & New York: Routledge Curzon, 2003, 330 p.
21. Melville C.P “Padshah-i Islam: the conversion of Sultan Mahmud Ghazan Khan,” in Melville (ed.), Pembroke Papers 1: //Persian and Islamic studies in Honour of P.W. Avery, 1990, pp.159-177.
22. Michael B. Empire of the Mongols, New York: Chelsea House Publisher, 2009, 160 p.
23. Morgan D.O. Medieval Persia 1040-1797. New York: Longman, 1988, 197 p.
24. Mustafa Uyar. İlhanlı hükümdarlarının İslama girmesinde rol alan Türk sufileri: İlhan Tegüder ve Gazan Han devirleri, T.T.K, Belleten, Cilt : LXXVI. Sayı 275, 2012, s.7-31.
25. Özgüdenli O. Gazan Han ve Reformları (1295-1304), İstanbul: Kaknüs yayınları, 2009, 524s.
26. Piriyev V.Z. Azərbaycan XIII – XIV əsrlərdə. Bakı: Nurlan, 2003, 458 s.
27. Pfeiffer J. “Conversion versions: Sultan Öljeytü’s conversion to Shi’ism (709/1309) in Muslim

narrative sources," Mongolian Studies 22, 1999, pp.35-67.
28. Pfeiffer J. "Reflections on a 'double rapprochement': conversion to Islam among the Mongol elite during the early Ilkhanate," in Komaroff, Beyond the Legacy of Genghis Khan, pp.369-89.
29. Rashiduddin Fazlullah's Jamiʻuʾt-tawarikh. Compendium of chronicles: a history of the Mongols (English translation & annotation by W.M. Thackston).Vol I-III, Harvard University, Dept of Near Eastern Languages and Civilizations,1998, 819 p.
30. Reşidüddin Fazlullah. Camiüt - Tevarih (İlhanlılar kısmı). Farscadan çev.İsmail Aka, Mehmet Ersan, Ahmed Hesamipour Khelejani, Ankara: TTK, 2013, 336 s.
31. R.Ranjbar, F.Allahyari, Hussein Mir Ja'fari. A Study on the Effects of Ghazan Khan's Reformative Measures for the Settlement of the Nomadic Mongols (1295-1304) //Asian Culture and History; Vol. 5, No. 2; 2013, pp.77-86.
32. Roxann Prazniak. Ilkhanid buddism: Trace of the passage in Eurasian History.Comparative Studies in Society and History 2014;56(3), pp.650–680.
33. Sykes P.M. A History of Persia. In two volumes. Vol. II. London: St. Martin's street, 1921, 568p
34. The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods, edited by J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, 709 p.
35. The Secret History of the Mongols. The Life and Times of Chinggis Khan translated by Onon U, London and New York: Routledge Curzon, 2001, 300 p.
36. Togan. Z.V. Umumi Türk Tarihine Giriş, 3.baskı. İstanbul: Enderun Kitabevi, 1981, 538 s.
37. The New Cambridge History of Islam. Edited by D. Morgan & A.Reid, Vol.3, Cambridge University Press, 2011, 680 p.
38. Vasilyev V.V. Bizans imparatorluğu tarihi, Türkçe trc, Tevabil Alkaç, İstanbul: Alfa yayım evi, 2015, 476 s.
39. ابوالقاسم عبدالله بن محمد القا شانی. تاریخ اولجایتو. به اهتمام: مهین همبلی. تهران: انتشارات زیبا، ۱۳٤۸ ، ۲۸۵ ص
40. رشیدالدین فضل الله همدانی . جامع التواریخ. تصحیح: محمد روشن. تهران: البرز، ۱۳۸۳،۲۶۷۷ ص.

НУРЛАН НАСИРОВ
Университет Хазар, Преподаватель кафедры История и Археологии,
Докторант Бакинского государственного университета по программе доктора наук

РЕЛИГИОЗНАЯ ПОЛИТИКА ГОСУДАРСТВА ИЛХАНИДОВ (НА ОСНОВЕ АНГЛОЯЗЫЧНОЙ ИСТОРИОГРАФИИ)

Государство Ильханидов (Хулагуидов), возникшее в Центральном Азербайджане в результате монгольских завоеваний, рассматривалось в отечественной историографии с различных социально-экономических и политических аспектов. Однако религиозная политика этого государства, особенно её долгосрочные последствия, осталась слабо исследованной. Основная причина этого пробела заключается в идеологических ограничениях и методологии исторической науки советского периода. Цель данной статьи- проанализировать религиозную политику большинства правителей Ильханидов на основе первоисточников и в контексте современной англоязычной историографии. В исследовании использован сравнительно-исторический метод, а также рассмотрены существующие теоретические подходы по теме.

Ключевые слова: Ильханиды, религиозная политика, Азербайджан, Монгольское государство, историография, англоязычные исследования.

NURLAN NASIROV
Lecturer, Department of History and Archaeology, Khazar University,
Doctoral student of the Baku State University in the Doctor of Sciences program

RELIGIOUS POLICY OF THE ILKHANATE STATE (BASED ON ENGLISH-LANGUAGE SCHOLARSHIP)

The Ilkhanate (Hulaguids) state, which emerged in Central Azerbaijan due to the Mongol invasions, has been studied in domestic historiography from various social, economic, and political pers-

pectives. However, the religious policy implemented by this state, particularly its long-term impacts, has remained largely underexplored. The main reason for this gap lies in the ideological constraints and historical methodology prevalent during the Soviet era. This article aims to analyze the religious policies of the majority of Ilkhanate rulers based on primary sources and within the context of contemporary English-language historiography. The research employs a comparative historical method and reviews relevant theoretical approaches.

Keywords: Ilkhanate, religious policy, Mongol Empire, Azerbaijan, Historiography, English-language scholarship.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.